# Azərbaycan Dövlət Kukla Teatrı - 85



■ Xəyalə Rəis
teatrşünas




Dünən, dekabrın 28-də Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının 85 illik yubileyi təntənəli şəkildə qeyd olundu. 1931-ci ildə Molla Ağa Bəbirli tərəfindən əsası qoyulan bu teatrın pərdələri 1932-ci ildə "Sirk" tamaşası ilə açılıb.

Müxtəlif illərdə (1931- 1941-ci illər); (1946-1950-ci illər) müstəqil teatr kimi, müəyyən dövrlərdə isə Azərbaycan Gənc tamaşaçılar teatrı (1941-1946-cı illər) və Azərbaycan Dövlət Filarmoniyasının nəzdində (1950-ci ildə) fəaliyyət göstərib. 1964-cü il aprel ayının 15-də teatra dövlət statusu verilib. 1975-ci ildən teatrda böyüklər üçün də tamaşalar göstərilir.



Rəşad Əhmədzadə



Qurban Məsimov



Rəhman Rəhmanov



Cəmilə Allahverdiyeva



Cavid Telman

Yarandığı gündən bu günəcən teatrda yüzlərlə tamaşa hazırlanıb. Teatrın kollektivi müxtəlif illərdə Hindistan, Yəmən, İran İslam Respublikası, Türkiyə, Hollandiya, Rusiya, Gürcüstan kimi ölkələrdə, eləcədə Respublikamızda keçirilən beynəlxalq teatr festivallarında iştirak etmiş, bir çox festivalların qalibi və laureatı olmuşdur.

Teatrda xalq oyunları, dastanları, nağılları, dünya klassikləri və milli dramaturgiyamızın üzərində köklənmiş müasir tamaşalar hazırlanır. Biz də ölkəmizin mədəni ictimaiyyətinə qoşulub Teatrın yaradıcı heyətini 85 illik yubileyləri münasibəti ilə təbrik etdik.

**Abdulla Şaiq adına Dövlət Kukla Teatrının direktoru Rəşad Əhmədzadə** bizimlə söhbətində uzun illərdir ki, Azərbaycan milli kukla sənənin inkişafına, azyaşlı izləyicilərin bədii estetik zövqünün formalaşmasına xidmət etdiklərini bildirdi: "Bu gün kuklaçılığın özünün təşəkkül formasını tapmasında özünəməxsus rolu olan, bu sahədə peşəkar rejissor, aktyor, rəssam kadrlarının yetişməsinə töhfəsini verən qocaman teatrımız 85 yaşını qeyd edir. 85 yaşımız olsa da teatrımız gənclik zövqünü, təravətini hələ də itirməyib. Düşünürəm ki, Kukla Teatrı bundan sonra da bədii-estetik zövqü, novator düşüncəsi ilə Azərbaycan teatr sənətində öz yerini tapacaq. Kukla Teatrı spesifik teatrdır. Burda çalışmaq, tamaşalar hazırlamaq və bu teatrın aktyoru olmaq çətin olduğu qədər də məsuliyyətlidir. Ölkəmizdə kuklaçılıq ənənələrini yaşatmaq, kukla sənətini peşəkar səviyyədə inkişaf etdirmək əsas etibar ilə bizim teatrın üzərinə düşür. Biz də bu öhdəliyin fərqindəyik və çalışırıq ki, bizdən əvvəlki nəsillərin qoyub getdiyi ənənələri daha müasir, geniş şəkildə inkişaf etdirək. Bizdən sonra gələn nəsillərə bu mirası sağlam şəkildə təqdim edək. İstər teatrımızın repertuarı, istər iştirak etdiyi beynəlxalq, yerli və xarici festivalları, qastrol səfərlərimizdəki uğurları cəhətdən teatrımız öz missiyasını layiqincə yerinə yetirir".

Teatrın direktoru qeyd etdi ki, yeniləşən tamaşaçıları teatrdan müasir səhnə nümunələri, maraqlı səhnə axtarışları, yeni qəhrəmanlar gözləyirlər: "Ümid edirəm ki, biz onların tələblərinə layiqincə cavab verəcəyik. Kukla Teatrı daim öz üzərində çalışan və yenilikləri ilə zəngin olan bir teatrdır. Belə ki, milli bədii nümunələr, zamanın tələbi olan səhnə xüsusiyyətləri səhnədən tamaşaçıya ötürülür. Bilirsiniz ki, bugünün uşaqları, zamanın tələbləri tam fərqlidir. Biz də bu müasirliklə ayaqlaşıb, onu səhnə formasında tamaşaçıya ötürməyə çalışırıq".

Müsahibimiz 85 illik yubileyi bütün teatrsevərlərin bayramı hesab edir: "Bizim sevincimizə qoşulan hər kəsə təşəkkür edirəm. İnanıram daim Kukla Teatrının səhnəsində göstərilən tamaşaları sevinclə izləyən, alqışlayan xüsusən də balaca teatrsevərlərimiz bizi tək qoymayacaq. Bizim onlara bəxş etdiyimiz tamaşaları öz alqışları ilə bizə geri qaytaracaqlar. Bu münasibətlə bütün Kukla Teatrını sevənləri təbrik edirəm".

**Teatrın baş rejissoru Qurban Məsimov** Kukla Teatrının onun həyatının bir hissəsinə çevrildiyini bildirdi: "Yaradıcılığımın bir hissəsi Kukla Teatrı ilə bağlıdır. Bu həyatımın böyük hissəsini təşkil edir. Mən uşaqlıqda Kukla Teatrını necə görmək istəyirdimsə çalışıram ki, arzuladığım vəziyyəti yaradım və tamaşaçılarla bölüşüm. Məsuliyyətimiz böyükdür. Biz bunun fərqindəyik. Çünki biz digər teatrlar üçün həm tamaşaçı hazırlayır, həm körpələrə teatrı sevdiririk. Sevdirdiyimiz halda da uşaqları maarifləndirməyə çalışırıq. Bir sözlə Kukla Teatrı bütövlükdə Azərbaycanın gələcək vətəndaşlarını hazırlayır. Bu baxımdan teatrın üzərinə böyük yük düşür. Bilirsiniz ki, 70-ci illərdə Kukla Teatrında böyüklər üçün tamaşalar hazırlanırdı. Hazırda da Teatrımızda böyüklər üçün tamaşalar hazırlanır. Biz bu ənənəni çox uğurla davam etdiririk. Bu da o deməkdir ki, Kukla Teatrı yalnız uşaqların deyil, birazdan böyüklərin də sevimli məkanına çevriləcək. Biz çalışırıq ki, repertuarımızda tez-tez dəyişiklik edək. Bizim vəzifəmiz tamaşalar hazırlayıb, festivallarda çıxış etməklə bitmir. Bizim teatrımızın tamaşaçıları var və ilin əsas hissəsini öz tamaşaçılarımıza qulluq edirik. Kukla Teatrının ən çətin cəhətlərdən biri odur ki, bizim tamaşalar gərək həm böyüklərin xoşuna gəlsin, həm də uşaqların".

Baş rejissor 85 yaşlı teatra yorulmamağı, yaradıcı kollektivə daxillərində gizlətdikləri, böyütdükləri o uşağı unutmamağı arzuladı.

**Prezident mükafatçısı, əməkdar artist Rəhman Rəhmanov** ömrümün çoxunu Kukla Teatrında keçirdiyini deyir: "Həyatımda ən önəmli yeri məhz Kukla Teatrı tutur. Bu da əbəs deyil. 85 yaşlı teatrın düz 42 il 6 ayını mən onunla bərabər çalışmışam. Xəmirim bu teatrla yoğurulub. Bu teatrın hər zaman tamaşaçısı olub, balalarımıza, körpələrimizə xidmət edib. Allaha şükürlər olsun ki, çox gözəl kollektivimiz var. İstərdim ki, beləcədə də davam etsin. Sevindirici haldır ki, teatrımızda istedadlı gənclər axın edirlər. Bu da o deməkdir ki, teatrımızın gələcəyi də etibarlı əllərdədir. Teatrımızın mərhələmərhələ addımlayaraq 100-200 yaşını qeyd etməsini arzulayıram".

Ömrünün 42 ilini teatrda keçirən aktyor bu teatrı seçdiyi üçün heç zaman peşmançılıq hissi keçirmədiyini deyir: "İndiyə qədər bütün teatrlardan dəvət almışam. Amma Kukla Teatrını heç birinə dəyişməmişəm. Teatrıma sadiq qalmışam. Kukla Teatrından çıxmağı fikirləşməmişəm də. Bura mənim ikinci evimdir. Hətta mənim otağımda yorğan döşəyim, televizorum, çaydanım var. Bu da o deməkdir ki, yeri gəlsə mən teatrda gecələr də çalışmağa hazıram".

**20 ildir ki, Kukla Teatrında çalışan Cəmilə Allahverdiyevanın** bu teatrda əziyyəti çox olub. Deyir ki, 85 il - böyük teatrın tarixinin göstəricisidir: "20 ildir ki, bu teatrda fəaliyyət göstərirəm. Bura Teatrın keçmiş baş rejissoru, mərhum sənətkarımız Rəhman Əlizadənin təşəbbüsü ilə gəlmişəm. Baxmayaraq ki, Kukla Teatrında işləyirəm, Rəhman müəllimin dəsti-xəttindən yararlanıb, püxtələşmiş aktrisayam. Bura Kukla Teatr olmağına baxmayaraq əvvəllər bu səhnədə "Brext", "Lorka", "İlbizin nəğməsi" kimi tamaşalar hazırlanıb. Mirzə Fətəli Axundovun, Şekspirin əsərləri oynanılıb. Keçmişə dönüb baxanda bir aktrisa kimi formalaşmağımda Nizami Gəncəvinin "Xeyir Şər" tamaşasının böyük rolu olub. Bu tamaşa bir çox beynəlxalq festivallarda yer tutub".

Aktrisa, yaradıcı heyəti 85 illik yubileylə bağlı təbrik etməyi də unutmadı: "Mən yaradıcı heyətimizə bol-bol uğurlar arzu edirəm. İstəyirəm ki, teatrımızın sorağı daha yüksək zirvələrdən gəlsin".

**3 ildir ki, Teatrda çalışan gənc aktyor Cavid Telman** da bizimlə həmsöhbət oldu. Bildirdi ki, uğurlarının 90 faizini məhz bu teatrda əldə edib: "Teatra 2013-cü ildən gəlmişəm. Bizim kollektivimiz çox mehribandır. Kollektivimiz artıq bir ailəyə çevrilib. Teatra gələndə çox gənc idim. Səhnədə çıxış edərkən bilmədiyim nüanslar var idi. Ancaq teatrın yaradıcı kollektivi, yaşlısından tutmuş ən gəncinə kimi mənə kömək etdilər, əllərindən gələni əsirgəmədilər. Burada çalışdığım 3 ildə çoxlu obrazlar canlandırmışam. Repertuarda yer alan tamaşaların 70 faizində rol alıram. Kukla Teatrında çalışmaq çox məsuliyyətlidir".

Cavid deyir ki, digər teatrlarda aktyor səhnəyə canlı şəkildə çıxaraq çıxış edirsə Kukla Teatrında belə deyil: "Kukla Teatrı spesifik teatrdır. Tamaşada keçirtdiyin hissləri aktyor özü yaşayır və onunla bərabər Kukla vasitəsi ilə tamaşaçıya ötürür. Gərək Kukları o qədər gözəl və səlis danışdırmağı bacarasan ki, üzərinə düşən obrazın öhdəsindən gələsən. Kukla Teatrının izləyiciləri balaca uşaqlardır. Biz Kuklaları onlara elə təqdim etməliyik ki, uşaqlar kuklanı sevməli və onlara hər şey maraqlı gəlməlidir. Uşaq maraqla oturub baxmalıdır. Tamaşaçını səhnəyə sehrləmək heç də asan məsələ deyil. Elə aktyor var ki, bir tamaşada başqabaşqa səslərlə 2-3 kukla oynadır".

Biz də Kukla Teatrının 85 illik yubileyini təbrik edir, yaradıcılıqlarında uğurlar arzu edirik.